# Qalib ölkəmizin vətənpərvər gəncləri



## Onlar döyüş meydanlarında qazandıqları qələbələri idman arenalarında da davam etdirirlər

*Dövlət başçısı idmançılarla görüşlərində hər zaman bildirdiyi kimi, güləş hər birimiz üçün çox əziz, ən populyar və məşhur idman növüdür. Ona görə istər Olimpiya Oyunları, istərsə də dünya və Avropa çempionatlarında üçrəngli bayrağımız ən çox məhz güləşçilərimizin uğurları nəticəsində yüksəyə qalxıb, himnimiz səslənib. Ölkəmizdə təkbətək idman növləri içində elit mövqeyini qoruyan güləşin bünövrəsi də möhkəm sütunlar üzərində bərqərardır. Bu gün idmana göstərilən qayğı bütün idman növlərinin, o cümlədən güləşin həm texniki-təlim, həm də elmi-metodiki bazasının daha da gücləndirilməsinə geniş imkan yaradıb.*

Azərbaycan güləşi daim özünün tarixi ənənəsini qoruyub saxlayıb. Pəhləvanlarımız güləşin bütün növlərində ölkə, Avropa, dünya birinciliklərində, Olimpiya Oyunlarında və digər beynəlxalq yarışlarda çıxış edib, öz ustalıqları ilə idman həvəskarlarının rəğbətini qazanıblar. 50-ci illərdən başlayaraq Musa Babayev, İbrahimpaşa və Muxtar Dadaşov qardaşları, Rəşid Məmmədbəyov, Aydın İbrahimov, Rafiq Hacıyev, Telman Paşayev, Viktor Avdışev, Arif Niftullayev, Məhyəddin Allahverdiyev, Xəzər İsayev kimi məşhur pəhləvanlarımız müxtəlif ölkələrdə keçirilən beynəlxalq yarışlarda, həm də keçmiş SSRİ-nin seçmə kollektivləri heyətində ölkəmizin idman şərəfini layiqincə qoruyublar.

Ölkəmizdə həyata keçirilən uğurlu siyasət nəticəsində bütün sahələrdə olduğu kimi, idmanda da böyük müvəffəqiyyətlərə imza atılıb. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra idman sahəsində əldə edilən qələbələr ona bir idman ölkəsi kimi nüfuz qazandırıb. İdmanın inkişafı və idman nailiyyətləri təkcə ölkəmizi dünyada təbliğ etmir, gücümüzü göstərmir, eyni zamanda, cəmiyyətdə vətənpərvərlik hisslərini gücləndirir. Məhz vətənpərvərlik, Vətənə olan sədaqət, fədakarlıq bizi Qarabağın azad olunması uğrunda müharibədə irəliyə aparırdı. Bu fikirləri Prezident İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edərkən söyləyib. O, həmçinin deyib: "Gənc nəsil də mütləq vətənpərvərlik ruhunda tərbiyə almalıdır, milli ruhda tərbiyə almalıdır, milli dəyərlər əsasında tərbiyə almalıdır və Azərbaycan dövləti buna nail olmaq üçün bütün imkanlardan istifadə edir. Vətənpərvərliyi daha da gücləndirən amillərdən biri, əlbəttə ki, tarixi-hərbi Zəfərimizdir və eyni zamanda, idman uğurlarımızdır". Gənclərin Vətəni ləyaqətlə təmsil etdiklərini, hər bir vətəndaşın öz əməyi ilə ölkəmizi gücləndirdiyini diqqətə çatdıran Prezident İlham Əliyev deyib ki, məhz buna görə bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır. Dünyada nadir ölkələrdəndir ki, öz taleyini özü həll edir, müəyyən edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda qələbə qazanır.

Məlumat üçün xatırladaq ki, peşəkar güləş məktəbi Azərbaycanda öz təşəkkülünü İkinci Dünya müharibəsindən sonra tapıb. Belə ki, "Kusturud" idman klubunun yaradıcılarından olan Rza Baxşəliyev ölkə güləşinin banilərindən hesab olunur. O, SSRİ-nin Əməkdar idman ustası, Azərbaycanın Əməkdar bədən tərbiyəsi və idman xadimi, Əməkdar məşqçi, güləş üzrə 20 qat ölkə çempionu idi. Dəfələrlə SSRİ çempionu Musa Babayev və İbrahimpaşa Dadaşov, SSRİ mükafatçısı Muxtar Dadaşov və Rəşid Məmmədbəyov məhz bu istedadlı və peşəkar güləşçinin yetirmələridir. Rəşid Məmmədbəyov Helsinki-1952 Olimpiya Oyunlarında 52 kq çəki dərəcəsində sərbəst güləş üzrə yarışlarda gümüş medal qazanmışdı. Bu, Azərbaycan idmançılarının Olimpiya Oyunlarında əldə etdiyi ilk medal idi.

Dünya çempionatı yarışlarında qızıl medal qazanan ilk Azərbaycan sərbəst güləşçisi isə Aydın İbrahimov olub. 1963-cü ildə Bolqarıstanda keçirilən yarışda fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. 1986-cı ildə Macarıstanda keçirilən Dünya çempionatında isə Xəzər İsayev qızıl medal qazanıb. Ölkəmizdə əvvəllər klassik güləş kimi tanınan yunan-Roma güləşi növündə ilk dünya çempionu titulunu 1978-ci ildə Meksikada keçirilən çempionatda Arif Niftullayev qazanıb. 1985-1997-ci illərdə Məhyəddin Allahverdiyev 3 qat dünya çempionu titulunа sahib olub. Azərbaycan güləşçilərindən Namiq Abdullayev, Natiq Eyvazov, Nazim Əlicanov, Elman Rüstəmov, Arif Abdullayev, Azad Əliyev, İlham Abbasov, Davud Məhəmmədov, Fərid Mansurov, Rövşən Bayramov, Cəbrayıl Həsənov, Elçin Əliyev müstəqillik illərində Avropa və dünya çempionatlarında uğurla çıxış ediblər.

Bu məqamda son illər ölkəmizdə populyarlıq qazanan qadın güləşindən də qısa söz açmaq yerinə düşər. Qadın güləşçilərimizin qazandıqları uğurların bəzilərini yada sala bilərik. Belə ki, 2007-ci ildən ölkəmizdə qadın güləşinə ayrılan diqqət sayəsində bu idman növünə də maraq artdı. Marağı artıran ən vacib amil isə təbii ki, qazanılan nailiyyətlər oldu. Qadın güləşi üzrə Avropa çempionatlarında ilk qızıl medal 2008-ci ildə Finlandiyada keçirilən Avropa çempionatında Mariya Stadnikdən gəldi. Mariya Stadnik daha sonra 2009, 2011, 2014 və 2016-cı illərdə də Avropa çempionatlarında qızıl medala sahib oldu. Sona Əhmədli 2010-cu ildə, Nadya Sementsova 2010, 2011-ci illərdə, Yuliya Ratkeviç 2011-ci ildə, Nataliya Sinişin 2016-cı ildə Avropa çempionu adına layiq görülən qadın güləşçilərimizdəndir. Mariya Stadnik və Yuliya Ratkeviç 2009-cu ildə həm də Danimarkada keçirilən dünya çempionatının qızıl medalına sahib olub. Güləşçilərimiz bundan başqa dünya və Avropa çempionatlarının gümüş və bürünc medallarını, müxtəlif beynəlxalq turnirlərin baş mükafatlarını da qazanıblar. Azərbaycan güləşçiləri komanda xarakterli Dünya Kuboku yarışlarında da iştirak edib. Sərbəst güləşçilərimiz 2004 və 2009-cu illərdə, yunan-Roma güləşçilərimiz isə 2015-ci ildə Dünya Kubokunun sahibi olub.



2015-ci ildə Bakıda, özü də ilk dəfə keçirilən Avropa Oyunlarında da güləşçilərimiz uğurla çıxış edib. 6 qızıl, 2 gümüş və 7 bürünc medal qazanan güləşçilərimiz onlara bəslənilən ümidləri doğrulدub. Qadın güləşçilərdən Mariya Stadnik və Anjela Doroqan, sərbəst güləşçilərdən Toğrul Əsgərov və Xetaq Qazyumov, yunan-Roma güləşçilərindən isə Rəsul Çunayev və Elvin Mürsəliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Dünyanın ən mötəbər idman yarışı olan Olimpiya Oyunlarına Azərbaycandan ən çox medalı güləşçilər qazanıb. 1996-cı il Atlanta Yay Olimpiya Oyunlarından etibarən müstəqil dövlət kimi olimpiadalarda iştirak edən Azərbaycan daim güləşçilərimizin medallarına sevinib. Həmin il gümüş medal qazanan pəhləvanımız Namiq Abdullayev bunu 2000-ci ildə Sidneydə qızıla çevirdi. 4 il sonra Afinada Fərid Mansurovun timsalında daha bir qızıl medal qazanıldı. 2008-ci ildə Azərbaycan pəhləvanları Pekində ikisi gümüş (Rövşən Bayramov və Vitali Rəhimov), ikisi bürünc (Xetaq Qazyumov və Mariya Stadnik) olmaqla 4 medal qazandılar. 2012-ci ildə Londonda Toğrul Əsgərovla Şərif Şərifovun qızılı, Mariya Stadniklə Rövşən Bayramovun gümüşü, Yuliya Ratkeviç, Emin Əhmədov və Xetaq Qazyumovun bürüncü güləş tariximizə qızıl hərflərlə yazıldı.

Azərbaycan dövlətinin gənclər siyasətinin əsas məqsədi intellektual, fiziki cəhətdən sağlam və vətənpərvər gənclər yetişdirməkdir. Ulu öndər Heydər Əliyev ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlar həyata keçirmişdir. Bu gün Azərbaycanın gələcəyi məhz gənclərdən, onların necə yetişməsindən, milli mənlik şüurunun hansı formada inkişaf etdirilməsindən, vətənpərvərlik hisslərinin necə tərbiyə edilməsindən asılıdır. Milli mənlik şüuru inkişaf edən, vətənpərvərlik hissləri yüksək səviyyədə tərbiyə olunan gənc nəslin formalaşması gələcəkdə onların dövlətimizin və xalqımızın etimadını layiqincə doğruldacağı inamını da yaradır. Bu cür gənclər dövlətimizin gücünü də artırırlar. Azərbaycanın hazırda məhz həmin prinsiplərə söykənən dövlət gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub.

Müstəqillik dövründə yaşamağın gənclər üçün böyük xoşbəxtlik olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin hərtərəfli inkişafında gənclərin roluna toxunub, onları cəmiyyətin fəal üzvləri kimi qiymətləndirib. Qeyd olunub ki, Azərbaycan gəncləri peşəkar olmalı, milli və vətənpərvərlik ruhunda tərbiyə almalıdırlar. "Haqlı olaraq gənclərimizlə fəxr edə bilərik", - deyən dövlətimizin başçısı şəhidlərimizin böyük əksəriyyətinin gənclər olduğunu vurğulayıb və qeyd edib ki, hər bir gəncin əsas vəzifəsi müstəqilliyimizi möhkəmləndirmək olmalıdır. Prezident İlham Əliyevin Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçıları ilə cari ilin 17 mart tarixli görüşündə qeyd edildiyi kimi, Azərbaycan idman dövlətidir və həm böyüklər, həm gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda bizim idmançılarımız öz gücünü, dövlətimizin qüdrətini nümayiş etdirirlər. Bizim idmançılar uzun illərdir Azərbaycanı dünyada təbliğ edirlər. İdman Azərbaycanın dövlət siyasətidir və idman hər bir ölkənin qüdrətini əks etdirir. 2015-ci ildə Prezident İlham Əliyev yunan-Roma güləşi üzrə İranda keçirilən dünya kuboku yarışlarında qalib gəlmiş milli komandamızın üzvlərini qəbul edərkən bildirmişdi ki, güləş Azərbaycanda ən sevilən, populyar və bizim milli idman növümüzdür. Əlbəttə, hər bir qələbədən sonra çox güman ki, uşaqlarımız, yeniyetmələrimiz güləş bölmələrinə daha da böyük həvəslə gedəcək, güləşçi olmaq istəyəcəklər. Onlar da çalışacaqlar Azərbaycanı ləyaqətlə təmsil etsinlər, çempion olsunlar və yüksək kürsülərə çıxsınlar.

Prezident İlham Əliyev Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edərkən onu da vurğulayıb ki, idmançılarımız yarışa çıxanda unutmamalıdırlar ki, müzəffər ölkəni və qalib xalqı təmsil edirlər. Həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq böyük nailiyyətdir və onu göstərir ki, güləşdəki ənənələrimiz yaşayır və güclü gənc nəsil yetişir.

**Mustafa KAMAL,**
**"Respublika".**